

## Volqadan Baltikədək

***İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov Volqadan Baltik sahillərinədək döyüş yolu keçib. Bu yol ölməz sərkərdənin şanlı döyüş yolu, qələbə yolu olub.***

***... 1941-ci ilin baharı sona çatırdı. Qərbi Ukraynanın təbiəti bu günlər bütün füsunkarlığı ilə özünü nümayiş etdirirdi. Bu yerlərin təbtiəti Həziyə doğma Lənkəranı xatırladırdı.***

Qızğın təlim günündən sonra şirin istirahətə dalmış döyüşçülər səhər durmaq işarəsinin verilməsinə az qalmış gözlənilməz bir gurultuya ayıldılar. Jitomir, Minsk, Kiyev, Sevastopol, Odessa, Kaunas kimi şəhərlərə havadan basqın edən faşist quldurları qəflətən hücuma keçmişdilər.

Həzi Aslanovun əsil qəhrəmanlığı və komandirlik məharəti Böyük Vətən müharibəsi cəbhələrində özünü parlaq şəkildə göstərdi.

Faşistlərlə müharibənin ilk günlərində desant batalyonunun komandiri olan Həzi Aslanov Lvov vilayətinin Zloçev şəhəri ətrafında vuruşurdu. O hələ birinci döyüşdə müdafiə və əkshücum taktikasından məharətlə istifadə edib azğın faşist işğalçılarına ilk sarsıdıcı zərbə endirdi.

1941-ci ilin payız günləri idi. Moskvanı düşmən təhlükəsi gözləyirdi. Belə bir çətin anda Həzi Aslanov da Moskvanı müdafiə edənlər sırasında idi. Neçə gün idi ki, faşistlər vacib hərbi sursat, ləvazimat, texnika ilə dolu 50-dən çox avtomaşını və xeyli canlı qüvvəsi olan hissələrimizdən birini mühasirəyə almışdılar. Döyüşçüləri və hərbi sursatı mütləq xilas etmək lazım idi. Bu çətin vəzifə Həzi Aslanova tapşırıldı. O, qəflətən hücuma keçib cəsarətli tank zərbəsi ilə düşmən mühasirəsini yardı, onun başını döyüşə qataraq hissəmizin mühasirədən çıxmasına şərait yaratdı. Üstəlik döyüşün həlledici çağında yararlı tankçını şəxsən əvəz edən komandir tankı faşistlərlə dolu səngər üzərinə yeridib onları əzdi.

Həzi Aslanov Moskva döyüşlərindəki igidliyinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif edildi və ona podpolkovnik rütbəsi verildi.

Stalinqrad döyüşü ərəfəsində Həzi Aslanov 55-ci əlahiddə tank alayının komandiri təyin edildi. Volqa sahilinə yola düşərkən o öz dostlarından birinə yazmışdı:

"Əziz dost! Əmin ola bilərsən ki, başımız və canımız bahasına belə Stalinqradı qoruyub saxlayacaq, əldən verməyəcəyik".

1942-ci ilin noyabrında Stalinqrad ətrafında əks-hücuma keçən Sovet Ordusu dəstələrinin ön sırasında gedənlərdən biri də Həzi Aslanovun tank alayı idi. Aslanovçular sürətlə düşmənə həmlə edib Sovetski qəsəbəsini faşistlərdən təmizlədilər. Onlar buradan keçib Cənub-Qərb cəbhəsi ordularının ön dəstələri ilə birləşdilər və bununla da mühasirə halqasının bağlanmasında vacib rol oynadılar. Faşistlərin 22 diviziyadan və 160 ayrı-ayrı hissələrdən ibarət 330 minlik seçmə ordusu mühasirəyə alındı.

Hitler 6-cı ordunu xilas etmək məqsədilə Manşteynin komandan olduğu 30 diviziyalıq xüsusi Don qrupunun dekabrın 12-də Kotelnikov istiqamətində hücuma keçməsi barədə əmr verdi. Həzi Aslanovun alayı ordumuzun başqa dəstələri ilə birlikdə mühasirəyə düşmüş faşist ordusunu xilas etməyə gələn Manşteynin tank ordusunun yolunu kəsməli, onu əzməli və faşist komandanlığının planını pozmalı idi. Bu məsul və şərəfli vəzifə komandirdən xüsusi çeviklik, iradə, yaradıcılıq tələb edirdi. Həzi Aslanov məhz belə keyfiyyətlərə malik komandir idi. Dekabrın 16-da Verxne-Kumskda onun tankçıları düşmənin yolunu kəsdilər. Üç sutka davam edən tank vuruşmasında Həzi Aslanovun tətbiq etdiyi hərbi əməliyyat döyüşün müvəffəqiyyətində həlledici rol oynadı. O, faşist tanklarında yan zirehin nazik olmasını nəzərə alaraq düşmən tanklarına cinahlardan zərbə endirmək üsulunu işlətdi. Faşistlər özləri üçün əlverişli olmayan taktiki şəraitdə döyüşə girməyə məcbur oldular və çox böyük tələfat verdilər. Aslanovçular sayca az qüvvə ilə düşmənin 50 tankını, 26 topunu, 50 zirehli, 125 minik avtomobilini, 2000 əsgər və zabitini məhv edib xeyli qənimət ələ keçirdilər.

Stalinqrad vuruşmalarında az tank hissəsi iştirak etməmişdi. Lakin Həzi Aslanov burada xüsusi hünər və məharət göstərmişdi. Heç də təsadüfi deyil ki, "Pravda" qəzeti 1942-ci il 27 dekabr tarixli 361-ci nömrəsinin baş məqaləsini bu əfsanəvi döyüşlərin qəhrəmanlarına həsr etmiş və "Qələbə çalmaq bacarığı" sərlövhəli məqalənin ilk abzasında dörd hissə komandirinin adı çəkilmişdi. Bunun biri Aslanov idi.

"Krasnaya Zvezda" qəzeti də H.Aslanov və onunla əlbir vuruşan hissələrin işi haqqında "Tabelikdə olan hissələrə bacarıqla rəhbərlik etmək nümunələri" sərlövhəli məqalədə yazırdı: "Aslanovun mərdliyi, şəxsi rəşadəti özünə tabe olan hissəyə bacarıqlı və mərd rəhbərlikdən, bölmələri bacarıqla və möhkəm idarə etməkdən və döyüş vəzifəsini həll edərkən sarsılmaz inaddan ibarət olmuşdur".

Həzi Aslanova həsr edilmiş onlarca hərbi qəzet məqalələri içərisində Stalinqrad cəbhəsinin "Sın oteçestvo" adlı qəzetinin bir baş məqaləsi daha səciyyəvi idi. Bu qəzet 1943-cü il 13 yanvar tarixli nömrəsində "Məharət və rəşadət " başlığı altında Həzi Aslanova həsr edilmiş baş

*(davamı səh. 48-də)*

əvvəli 28-ci səhifədə

məqaləsində yazırdı: "Bizim müdhiş texnikamızın istifadə edilməsi, tankların piyada və topçularla əlbir iş görməsi qaydasını qvardiya polkovniki Aslanovun hissəsinin əməliyyatından öyrənmək lazımdır. Qoy Sovet İttifaqı Qəhrəmanı Aslanovun döyüşçülərinin mübariz işi bütün bölmələrimiz üçün nümunə olsun.

Həzi Aslanovun döyüş şöhrəti bütün cəbhələrə yayılmış, uca dağları, böyük dənizləri aşıb doğma vətəni Azərbaycana da gəlib çatmışdı. Döyüşlərin qızğın, vaxtın az olmasına baxmayaraq Həzi öz övladlıq vəzifəsini yadından çıxarmırdı. O, ən ağır döyüşlər zamanı belə anasına və həyat yoldaşına məktub yazır, hər dəfə daha yaxşı vuruşacağını vəd edirdi. Sovet İttifaqı Qəhrəmanı adı alması münasibətilə Həzi anası Nuşafərinə göndərdiyi bir məktubda yenə bu vədini xatırladır və yazırdı: "Sevimli anacığım! Bu gün mənim böyük bayramımdır. Mənə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında xəbəri almışam. Anacan, mən səni əmin edirəm ki, alman işğalçılarını darmadağın etmək işində mənə verilmiş bu yüksək adı doğruldacağam".

Böyük Vətən uğrunda ilk döyüşə kapitan rütbəsi ilə daxil olan Həzi Aslanov 1944-cü ilin mart ayında qvardiya general-mayoru adı aldı. İyulun 1-də Berezina çayını keçib Borisov şəhərini azad edən tankçılar bir gün sonra Vileyka şəhərini təmizlədilər. Həzi Aslanovun tankçıları 6-7 günün içərisində çox ciddi və çətin vuruşmalarda 200 kilometrdən artıq yol getdilər. Təkcə iyul ayında Həzi Aslanovun tankçıları Ali Baş Komandan tərəfindən 8 dəfə təşəkkür aldılar. Bu vuruşmalar zamanı Həzi Aslanov Suvorovun məşhur fikirlərini xatırlayaraq komandirlərinə tez-tez "düşməni heyrətə salın, bu, sizin qələbənizi asanlaşdırar, onu tez məğlub edər" deyirdi. O öz adamlarına: "Sayla deyil, bacarıqla qalib çıxmaq lazımdır" - deyə onları ilhama gətirmişdi.

19 günlük ağır döyüşün nəticəsi çox parlaq idi. Ağır sovet tankları qvardiya general-mayoru Həzi Aslanovun komandası altında ciddi döyüşlərdə 500 kilometrdən artıq yol getmişdi. Bu müddət ərzində onlarca şəhər və yüzlərlə kəndi azad etmiş, düşmənin çoxlu silah və sursatını məhv etmiş, xeyli qənimət almış, minlərlə düşmən əsgər və zabitini qırmış, əsir almışdır.

Həzi Aslanov bu rəşadətilə öz ulu əcdadının bütün ənənələrinə sadiq qaldı. O, Cavanşir kimi cəsur və cürətli, Babək kimi polad və yenilməz oldu. Aslanovu xalq qəhrəmanı edən, onun adını xalqımızın qəlbinə, Vətən müharibəsi tarixinin əbədi səhifələrinə yazan da bunlar oldu.

***Tamara FƏTULLAYEVA,***
***iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev-muzeyinin direktoru***